Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Kollegiyasının 30.07.2015-ci il tarixli 1517050000006200 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

Əlavə - 27

# "*Vergi orqanı əməkdaşlarının qeyri-etik davranışı barədə məlumatın onlayn verilməsi*" *elektron xidməti üzrə inzibati reqlament*

## 1. Ümumi müddəalar

**1.1. Elektron xidmətin adı:** *Vergi orqanı əməkdaşlarının qeyri-etik davranışı barədə məlumatın onlayn verilməsi.*

**1.2. Elektron xidmətin məzmunu:** *Fiziki və hüquqi şəxslər vergi orqanı əməkdaşlarının qeyri-etik davranışı barədə Azərbaycan Respublikasının Vergilər Nazirliyinə onlayn müraciət edə bilərlər. Bu elektron xidmətin təşkili vergi orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsinə zəmin yaradır.*

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:** *"Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikasının Qanununun 5-ci, 7-ci və 10-cu maddələri, "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun 20-ci, 52-ci və 78-ci maddələri, "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 4.1-ci maddəsi, Azərbaycan Respublikası Prezidentinin 29 mart 2001-ci il tarixli 454 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında" Əsasnamənin 8.3-cü və 8.4-cü bəndləri, Azərbaycan Respublikası Prezidentinin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 23 may 2011-ci il tarixli 429 nömrəli Fərmanının 2-ci və 2-1-ci hissələri, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları", həmin Qaydalara 1 nömrəli əlavə, eləcə də "Elektron xidmət növlərinin Siyahısı"nın 7.38-ci bəndi.*

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:** *Azərbaycan Respublikasının Vergilər Nazirliyi.*

**1.5. Elektron xidmətin digər icraçıları:** *Yoxdur.*

**1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** *Tam avtomatlaşdırılmışdır.*

**1.7. Elektron xidmətin icra müddəti:** *"Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikasının Qanununun 10-cu maddəsində, "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun 52-ci və 78-ci maddələrində göstərilən müddətlər.*

**1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:** *Müraciətin araşdırılmasının nəticəsinə dair müraciət müəllifinə cavab məktubu göndərilir.*

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

**2.1. Elektron xidmətin növü:** *İnteraktiv.*

**2.2. Elektron xidmət üzrə ödəniş:** *Ödənişsiz.*

**2.3. Elektron xidmətin istifadəçiləri:** *İstənilən fiziki və hüquqi şəxs.*

**2.4. Elektron xidmətin təqdim olunma yeri:** *Azərbaycan Respublikasının Vergilər Nazirliyinin rəsmi internet səhifəsinin "E-xidmətlər" bölməsi (http://www.taxes.gov.az/modul.php?name=e-xidmetler), http://www.e-gov.az.*

**2.5. Elektron xidmət barədə məlumatlandırma:**

*2.5.1. http://www.taxes.gov.az;*

*2.5.2. http://www.e-gov.az;*

*2.5.3. Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Çağrı Mərkəzi (195);*

*2.5.4. Vergi ödəyicilərinə xidmət strukturları (müvafiq idarə və şöbələr);*

*2.5.5. Vergi ödəyicilərinə xidmət mərkəzləri;*

*2.5.6. office@taxes.gov.az.*

**2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:** *Şəxsiyyəti təsdiq edən sənəd (təqdim olunmuş forma üzrə müəyyən edilmiş müvafiq qrafalarda şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsi qeyd olunur).*

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

**3.1. İnteraktiv elektron xidmətlər uçun sorğu:**

**3.1.1. sorğunun formalaşdırılması:** *İstifadəçi tərəfindən Reqlamentin 2.4-cü bəndində qeyd edilən səhifənin müvafiq bölməsində "**Vergi orqanı əməkdaşlarının qeyri-etik davranışı barədə məlumatın onlayn verilməsi"** xidmət növü seçilir. Bu zaman açılmış pəncərədə təqdim olunmuş forma üzrə (*****) işarəsi ilə qeyd olunan "Adınız", "Soyadınız",*

*“Atanızın adı”, “Şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsi” və “Doğum tarixi” qrafaları doldurularaq “Davam et” düyməsi sıxılır. Bundan sonra açılacaq yeni pəncərədə istifadəçi tərəfindən forma üzrə müəyyən edilmiş müvafiq qrafalar doldurularaq “Göndər” düyməsi sıxılır. Bu zaman (*) işarəsi ilə qeyd olunan aşağıdakı qrafaların mahiyyəti üzrə doldurulması zəruridir:*

*1. Telefon nömrəsi (ev, iş, mobil);*

*2. E-mail;*

*3. Müraciətin məzmunu.*

**3.1.2. sorğunun qəbulu:** *Müraciət formasının məlumatları əks əlaqə (feed-back) vasitəsilə onlayn rejimdə qəbul edilir.*

**3.2. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**

**3.2.1. sorğunun yerinə yetirilməsindən imtina halları (tam və qismən avtomatlaşdırılmış xidmətlərin uyğun xüsusiyyətləri nəzərə alınmaqla):** *Reqlamentin 3.1.1-ci bəndində qeyd olunan qrafalardan ((*) işarəsi ilə qeyd olunmayan qrafalar istisna olmaqla) hər hansı biri doldurulmadıqda elektron xidmətin göstərilməsindən imtina olunur;*

**3.2.2. sorğunun qəbulu:** *Reqlamentin 3.1.2-ci bəndinə uyğun olaraq.*

**3.3. Sorğunun icrası:**

**3.3.1. ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat:** *Təqdim olunmuş forma istifadəçi tərəfindən doldurulub onlayn rejimdə göndərildikdən sonra müraciət dərhal Vergilər Nazirliyinin Aparatına daxil olur. Müraciət Vergilər Nazirliyinin Aparatı tərəfindən Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) vasitəsilə qeydiyyata alındıqdan sonra dərkənar verilməsi üçün aidiyyəti üzrə nazirliyin rəhbərliyinə təqdim edilir. Müvafiq dərkənar verildikdən sonra müraciət icra üçün aidiyyəti struktura göndərilir. Müraciətin araşdırılmasının nəticəsinə dair hazırlanmış cavab məktubu Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) vasitəsilə qeydiyyata alınaraq müraciət müəllifinin qeyd etdiyi e-mail ünvana göndərilir. Elektron xidmətin göstərilməsinə Vergilər Nazirliyinin Aparatı, Vergilər Nazirliyinin İnsan resursları idarəsi, Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət baş idarəsi və Vergilər Nazirliyinin İnformasiya texnologiyaları və proqram təminatı şöbəsi məsuliyyət daşıyırlar;*

**3.3.2. hər bir inzibati əməliyyatın məzmunu, yerinə yetirilmə müddəti və/və ya maksimal yerinə yetirilmə müddəti:** “Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında” Azərbaycan Respublikasının Qanununun 10-cu maddəsində, “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununun 52-ci və 78-ci maddələrində göstərilən müddətlər;

**3.3.3. inzibati əməliyyatda iştirak edən digər dövlət orqanı haqqında məlumat:** *Yoxdur;*

**3.3.4. hər bir inzibati prosedurun nəticəsi və onun verilməsi qaydası:** *Reqlamentin 3.3.1-ci bəndinə uyğun olaraq.*

**3.4. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:**

**3.4.1. nəzarət forması:** *Müraciət Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) vasitəsilə qeydiyyat alınır və icra müddəti göstərilir;*

**3.4.2. nəzarət qaydası:** *Bu xidmətin yerinə yetirilməsinə nəzarət Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Aparatı tərəfindən həyata keçirilir. İstifadəçilər üçün elektron xidmətdən istifadə ilə bağlı yaranan hər hansı anlaşılmazlığın aradan qaldırılması və ya onlara metodiki dəstəyin göstərilməsi məqsədilə Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Çağrı Mərkəzi (195) fəaliyyət göstərir.*

**3.5. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:** *İstifadəçi elektron xidmətlə bağlı onun narazılığına səbəb olan istənilən məsələ barədə inzibati qaydada və (və ya) məhkəməyə şikayət edə bilər. Şikayətin verilməsi və baxılması qaydası aşağıdakı kimidir:*

**3.5.1. İstifadəçinin şikayət etmək hüququ haqqında məlumat:** *Elektron xidmətin göstərilməsindən və ya elektron xidmətin göstərilməsindən imtinadan qanunvericiliyə uyğun olaraq inzibati qaydada və (və ya) məhkəməyə şikayət verilə bilər;*

**3.5.2. Şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya:** *İnzibati şikayətin forması "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun 74-cü maddəsinə uyğun olmalıdır;*

**3.5.3. Şikayətin baxılma müddəti:** *Şikayət inzibati orqana verildikdə, şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunun 78-ci maddəsinə əsasən 1 ay müddətinə baxılır. Məhkəməyə verilən şikayətə Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır.*

* * *